# Azərbaycan bayrağı artıq bütün sərhəd boyu dalğalanır

## Silahlı Qüvvələrimiz Laçın yolunun başlanğıcında xidməti fəaliyyətə başladı

Bölgədə sülhü, barışığı, təhlükəsizliyi simvolizə edən üçrəngli, ay-ulduzlu Azərbaycan bayrağı artıq Hayastanla şərti sərhəddə, Laçın yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsində də qürurla dalğalanır.

Bu isə Azərbaycana tarixi Zəfər yaşadan Müzəffər Ali Baş Komandan İlham Əliyevin mərhələli şəkildə xalqımızın milli maraqlarını qətiyyətlə təmin etməsinin daha bir parlaq nümunəsi, suveren ərazilərimizdə özbaşınalıqlar etmək istəyən erməni separatçılarının başına endirdiyi növbəti "dəmir yumruq" zərbəsidir.

Necə ki, bunu aprelin 18-də Azərbaycan Televiziyasına verdiyi müsahibəsində qalib lider İlham Əliyev bəyan etmişdi: "Hazırda özləri üçün qondarma adlar uyduran separatçılar, - biri özünü prezident adlandırır, biri özünü nazir adlandırır, biri nə bilim nə parlament sədri adlandırır, - bu təlxəklər toplusu, nəhayət, bilməlidir ki, bizim səbrimizlə oynamaq olmaz. Biz onlara müxtəlif yollarla dəfələrlə izah etməyə çalışmışıq ki, onlar ya bizim sözümüzlə oturub duracaqlar, ya da ki, oradan rədd olacaqlar və orada yaşayan, onların faktiki olaraq girovuna, əsirinə çevrilmiş erməniləri də rahat buraxacaqlar".




→ 11

# Azərbaycan bayrağı artıq bütün sərhəd boyu dalğalanır

## Silahlı Qüvvələrimiz Laçın yolunun başlanğıcında xidməti fəaliyyətə başladı

*Əvvəli 1-ci səh.*



### Bakı sülh, İrəvan müharibə tərəfdarıdır

44 günlük müharibədən dərhal sonra Azərbaycan Hayastana təkmil sülh modeli təklif edib, rəsmi Bakı sülh prosesi çərçivəsində baş tutan üçtərəfli görüşlərdə hər zaman barışıq tərəfdarı olduğunu bildirib. İki ölkə arasında normallaşmaya nail olunması üçün ölkəmiz üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəlikləri layiqincə və vaxtından əvvəl yerinə yetirərək nümunəvi əzm nümayiş etdirib. Buna yeni Laçın yolunun zamanından tez tikilib istifadəyə verilməsi bariz örnəkdir.

Lakin üçtərəfli Bəyanatın imzalanmasının üzərindən ötən iki ildən çox müddət ərzində rəsmi İrəvan sülh müqaviləsinin bağlanması istiqamətində nəinki hansısa real addımlar atıb, əksinə, bu prosesə xeyli süni əngəllər yaradıb. Sözügedən bəyanatla üzərinə götürdüyü bütün öhdəliklərdən yayınan haylar, bu zaman ərzində xarici havadarlarının göstərdiyi dəstəklə revanşa hazırlaşıblar.

Hayastan 10 noyabr üçtərəfli Bəyanatının müddəalarını kobud şəkildə pozaraq Qarabağda fəaliyyət göstərən qanunsuz erməni hərbi birləşmələrini ərazilərimizdən çıxarmayıb, yalnız humanitar məqsədlər üçün nəzərdə tutulan Laçın yolundan hərbi təyinatlı yüklər daşıyaraq ölkəmizə qarşı təxribatlar törədib. Mənfurların bu təxribatçı əməllərinə 44 günlük müharibədən sonra ərazilərimizdə aşkarlanan 2021-ci il Hayastan istehsallı minalar bariz dəlillərdəndir. Rəsmi statistikaya əsasən, Vətən müharibəsindən sonra 294 azərbaycanlı ermənilərin mina terrorunun qurbanı olub.

### Nəzarət-buraxılış məntəqəsinin qurulması zərurət idi

Xatırladaq ki, ötən il dekabrın 12-dən ekofəallarımız Laçın yolunda Qarabağ iqtisadi rayonunda separatçılar tərəfindən sərvətlərimizin istismarı və talanmasına, bu yoldan hərbi məqsədlərlə istifadəyə qarşı dinc etiraz aksiyası keçirirlər. Vətəndaş cəmiyyətimizin 130 gündən çoxdur davam edən bu dinc aksiyası sayəsində müəyyən nailiyyətlərə də nail olmuşuq ki, bunlardan biri də Laçın yolundan Hayastan tərəfindən hərbi təyinatlı yüklərin daşınmasına son qoyulması idi. Bundan sonra isə Hayastan Laçın yoluna paralel olan torpaq yollarla Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Qarabağ iqtisadi zonasına gizli şəkildə silah-sursat, canlı qüvvə daşımağa davam etdi. Separatçıların bu qanunsuz əməllərinə Azərbaycan Ordusunun bölmələrinin keçirdiyi uğurlu əməliyyatla son qoyuldu.

Lakin istənilən halda Hayastanın bu qanunsuz və təhlükəli əməlləri Azərbaycanın Laçın yolunun son nöqtəsində nəzarət-buraxılış məntəqəsinin yaradılmasını labüd edirdi və bu, aprelin 23-də gerçəkləşdirildi.

Bununla bağlı Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilir ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə və Ermənistan tərəfindən aprelin 22-də birtərəfli qaydada Azərbaycan ilə sərhəddə Laçın yolunun girişində nəzarət-buraxılış məntəqəsinin qurulmasına adekvat olaraq aprelin 23-ü saat 12:00-da Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsi qurulub.

### Bütün hava, su və quru sərhədlərimiz nəzarətdədir

Ermənistan ilə sərhəddə, Laçın yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsinin qurulması Azərbaycanın öz suveren ərazilərində bütün su, hava və quru sərhədlərinə tam nəzarəti həyata keçirməsinin, milli təhlükəsizliyini, bir sözlə, ədaləti təmin etməsinin göstəricisidir. Artıq Hayastan və separatçılar bu yoldan ölkəmizə qarşı təxribatlar üçün istifadə edə bilməyəcək.

Bundan sonra Azərbaycan tərəfindən Laçın yolunda hərəkətin şəffaflığı, o cümlədən hər iki tərəfə vətəndaşların və nəqliyyatın tam təhlükəsiz şəkildə hərəkəti təmin ediləcək. Ən əsası, bu yolun başlanğıcında nəzarət-keçid məntəqəsinin quraşdırılması Xankəndidə yaşayan ermənisilli vətəndaşlarımızın separatçılar tərəfindən hansısa təxribatlara cəlb edilməsinə, onlardan suiistifadə edilməsinə son qoyacaq.

Vurğulayaq ki, Azərbaycanda yaşayan erməni sakinlərin cəmiyyətimizə reinteqrasiya prosesi ilə bağlı rəsmi Bakı əməli fəaliyyət göstərir, bu istiqamətdə real addımlar atır. Bütün bunlar bir daha onu göstərir ki, Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri kimi, ermənisilli vətəndaşların da rifahı dövlətimiz üçün əsasdır və bunu hələ 44 günlük müharibənin gedişi ərəfəsində dövlət başçısı İlham Əliyev Yaponiyanın "Nikkie" qəzetinə müsahibəsi zamanı bildirmişdi: "Qarabağdakı ermənilər tam əmin ola bilərlər ki, Azərbaycan vətəndaşları olaraq onların təhlükəsizliyi təmin ediləcək. Onlar ləyaqətlə yaşayacaqlar, sülh şəraitində yaşayacaqlar və ölkəmizdəki istənilən başqa insanlar üçün etdiyimiz kimi, biz onlar üçün də bütün sosial və iqtisadi imtiyazları təmin edəcəyik".

### Ya Azərbaycan bayrağı altında yaşayacaqlar, ya da ki, çıxıb gedəcəklər

Ölkəmizin beynəlxalq qanunlar çərçivəsində Hayastanla şərti sərhəddə, Laçın yolunda nəzarət-buraxılış məntəqəsini yaratması təcavüzkar Hayastan və ona havadarlıq edən bəzi riyakar xarici dövlətlər tərəfindən hay-küylə qarşılandı, əsassız ittihamlarla dolu gülünc bəyanatlar səsləndirildi, xüsusilə regionda heç bir vəchlə sülhə nail olunmasını istəməyən Fransa canfəşanlığı ilə seçildi...

Ancaq kimlərin, bəzi qüvvələrin hansı mövqedə dayanmasından, nə deməsindən asılı olmayaraq, Azərbaycan bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsində qərarlıdır. Laçın yolunda sərhəd-buraxılış məntəqəsinin yaradılması da barışığı təmin edəcək mühüm addımlardan biri, eyni zamanda Azərbaycanın əzminin, qüdrətinin göstəricisidir.

Revanşa cürətlənən separatçılar da bir daha anladılar ki, Azərbaycan bayrağının dalğalandığı ərazilərdə təlxəklər sürüsü at oynada bilməz. Yuxarıda sitat gətirdiyimiz müsahibəsində Prezident İlham Əliyev də vurğulamışdı ki, separatçılar bilməlidirlər ki, onların iki seçimi var: ya Azərbaycan bayrağı altında yaşayacaqlar, ya da ki, çıxıb gedəcəklər: "Biz separatçıların əsas simalarından olan Serjik Sarkisyanı, Robert Koçaryanı, Seyran Ohanyanı Qarabağdan iti qovan kimi qovmuşuq, onları diz çökdürmüşük".

Göründüyü kimi, nəyi necə, nə vaxt etmək lazım olduğunu bilən qətiyyətli sərkərdə İlham Əliyev 44 günlük müharibədə "dəmir yumruq" vasitəsilə BMT-nin qətnamələrini döyüş meydanında güc yolu ilə yerinə yetirərək ədaləti təmin etdiyi kimi, bundan sonrakı mərhələdə də xalqının, ölkəsinin milli maraqlarını beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində ardıcıl şəkildə təmin edir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.-26 aprel.- S.1; 11.